

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 239 (21.649)

*15 dekabr 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Beynəlxalq Hava Limanında sərnişinlərə nümunəvi xidmət göstərilir




*Muxtar respublikada hava nəqliyyatında xidmətin düzgün təşkili, sərnişinlərin rahatlığı və təhlükəsizliyi diqqət mərkəzində saxlanılır.*

Ötən ay hava limanında teleskopik traplara, nəzarət-müşahidə kameralarına və kompüterlərə texniki baxış keçirilmiş, nasazlıqlar vaxtında aradan qaldırılmışdır. Hava gəmilərinə uçuşdan sonra və uçuşqabağı texniki baxış keçirilmişdir. Həmçinin aerodrom ərazisindəki elektrik, işıqlandırma, rabitə, istilik və havalandırma sistemlərinə texniki qulluq göstərilmiş, uçuş-enmə zolağı, dönmə yolları və dayanacaqlar mütəmadi yoxlanılmış, uçuşların vaxtında və təhlükəsiz təşkili təmin edilmişdir. Bundan başqa, istismarda olan bütün növ xidməti avtomobillər qış mövsümünə tam hazır vəziyyətə gətirilmişdir.

Noyabr ayında yerli hava xətti ilə 16 min 830 sərnişin, 362 min 173 kiloqram baqaj, 73 min 72 kiloqram yük və 4509 kiloqram poçt, beynəlxalq hava xətti ilə isə Naxçıvan-Moskva istiqamətində 177 sərnişin, 3661 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 257 sərnişin və 3227 kiloqram baqaj daşınmışdır.

**Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti**

*Muxtar respublikada işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığı, əməyin təşkili və mühafizəsi, aztəminatlı ailələrin, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin sosial təminatı, tibbi və sosial reabilitasiyası ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.*

## Muxtar respublikada məşğulluq tədbirləri diqqətdə saxlanılır

Noyabr ayında da bu məsələ diqqətdə saxlanılmış, 330 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilmiş, 8 nəfər kəndlərdə xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuş, 65 nəfər peşə və 29 nəfər ixtisasartırma kurslarına, 47 nəfər haqqıödənilən ictimai işlərə cəlb edilmişdir. Bu dövrdə məhdud fiziki imkanlı 23 sakin tərəfindən toxunmuş 1816 cüt yun corab və 236 ədəd yun şərf hərbi hissələrə təhvil verilmişdir.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuşdur. "Qazanxana maşinisti", "Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər" və "Dayə" peşələri üzrə kursları 81 nəfər bitirmişdir. Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılmış, aztəminatlı sağlamlıq imkanları məhdud 273 şagirdə qış geyimi verilmişdir. Noyabr ayı tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 422 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 16 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmişdir. Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 26 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 28 uşağın müalicəsi təşkil edilmiş, eyni zamanda 12 nəfərə sanatoriya və pansionatlara göndəriş verilmiş, 13 nəfər texniki reabilitasiya vasitəsilə təmin olunmuş, 3 nəfərin sosial məişət şəraitinin yaxşılaşmasına kömək göstərilmişdir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində brayl yazı və şeir müsabiqələri keçirilmişdir. Sumqayıt şəhərində keçirilən II uşaq paralimpiya idman oyunlarında muxtar respublikanı stolüstü tennis və boccia idman növü üzrə sağlamlıq imkanları məhdud 3 idmançı təmsil etmişdir. Boccia idman növü üzrə yarışlarda həmyerlilərimiz 1-ci və 3-cü yerlərə layiq görülmüşlər. Bakı şəhərində keçirilən sağlamlıq imkanları məhdud şəxslərin VII Ümumrespublika Bədii Yaradıcılıq müsabiqəsində isə muxtar respublika təmsilçisi bədii qiraət üzrə 3-cü yerə layiq görülmüşdür.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Payız suvarma mövsümü mütəşəkkil keçirilib



Muxtar respublikada yaradılan müasir meliorasiya və irriqasiya sistemləri torpaqların su təminatını yaxşılaşdırır. Noyabr ayında muxtar respublikada 15 kilometr magistral kanal, 32 kilometr ara arxlar və 2 kilometr kollektor lildən təmizlənmiş, 3 kilometrlik açıq drenaj təmir edilmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə 3 kilometr uzunluğunda istiqamətləndirici bənd tikilmişdir.

Bu dövrdə içməli su təminatı da diqqətdə saxlanılmış, Culfa rayonunun Saltaq kəndinə içməli su verilməsi üçün Əlincə çayı vadisində yeni kaptaj tikilmişdir. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan 48 subartezian quyusunda təmir işləri yerinə yetirilmiş, 5 kəhrizin bərpası isə davam etdirilmişdir. "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərinin Tumbul kəndində içməli su və kanalizasiya xətlərinin tikintisi başa çatdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2016-cı ilin noyabr ayı ərzində əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmışdır. Bu dövrdə fondun gəlirləri 5 milyon 680 min manat olmuşdur.*

## Naxçıvanda 220 vətəndaşa əmək pensiyası təyin olunmuşdur

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ötən ay pensiya hüququ yaranmış 220 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Yeni təyin olunan əmək pensiyaçılarına və istifadə müddəti başa çatan plastik kartların yenilәri ilə əvəzlənməsi üçün müvafiq müvəkkil banklara 1934 plastik kart hazırlanması üçün sifariş verilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən elektron sənəd mübadiləsinin daha da təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində idarəetmənin səmərəliliyinin artırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Noyabr ayında fond tərəfindən təqdim olunan 21 elektron xidmətin 16-dan istifadə olunmuş, vətəndaşları maraqlandıran məsələlər aydınlaşdırılmış, sosial sığorta və pensiya qanunvericiliyinin tələbləri onlara izah edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Şəhərimizin quruculuq ünvanları

*Naxçıvan şəhərində hər il genişmiqyaslı tikinti-quruculuq işlərinin aparılması, abadlıq tədbirlərinin həyata keçirilməsi muxtar respublika paytaxtının simasını xeyli dərəcədə dəyişdirib. Həyata keçirilən bu tədbirlər qədim şəhərin gözəlliyini artırmaqla yanaşı, insanların rahat şəraitdə yaşamasına və işləməsinə, asudə vaxtlarının səmərəli keçirilməsinə zəmin yaradıb. Cari ildə də bu sahədə aparılan işlər diqqət mərkəzində saxlanılır. Belə ki, həyata keçirilən tədbirlər çərçivəsində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması mühüm yer tutur.*





Hazırda Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yeni yaşayış binasının tikintisi davam etdirilir. Zirzəmi ilə birlikdə səkkiz mərtəbədən ibarət olan binanın təməli 2015-ci ilin may ayında qoyulub. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən ötən dövrdə binada hörgü işləri başa çatdırılıb, dam örtüyü vurulub. Hazırda daxildə suvaq işləri aparılır, pilləkənlərə daş döşənir. Binanın fasad hissəsi isə üç tərəfdən travertin daşla milli memarlıq üslubunda üzlənib, digər tərəfdə isə işlər davam etdirilir. Yaşayış binası hazır olduqdan sonra zirzəmi hissədə 210 kvadratmetrlik anbar və foye yerləşəcək. Birinci mərtəbədə isə mağazalar fəaliyyət göstərəcək. Digər mərtəbələrin hər birində isə bir mənzil yerləşməklə bina 6 mənzilli olacaq. 220 kvadratmetrlik mənzillərin hər birində üç yataq otağı, bir salon, foye və mətbəx yerləşəcək. Milli və müasir memarlıq elementlərindən istifadə edilməklə tikintisi aparılan binada hər mənzilin üç eyvanı olacaq.



Şəhərin "İstiqlal" küçəsindəki yaşayış binalarına da son illərin quruculuq tədbirlərindən pay düşüb. Hazırda burada 111 nömrəli yaşayış binasının yenidən qurulması işləri davam etdirilir. Bu quruculuq tədbirinə cari ilin sentyabr ayından başlanılıb. İlkin olaraq qəzalı vəziyyətdə olan eyvanlar və sonradan artırılan hissələr sökülüb, sonrakı mərhələdə binanın ətrafı beton sütunlarla möhkəmləndirilib. Bununla yanaşı, yaşayış binası arxaya doğru 3 metrlik məsafəyədək artırılıb, dam örtüyü vurulub. Binanın eninə doğru artırılması burada yaşayan sakinlərin mənzil sahəsinin genişlənməsinə şərait yaradıb. Ötən dövrdə zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan binanın kommunikasiya xətləri yenilənib, pəncərələri dəyişdirilib, daxildə pilləkənlərə və fasadın müəyyən hissələrinə üzlük daş vurulub. Hazırda binanın ətrafında abadlıq işləri görülür, yerə kilid daş döşənir. 36 mənzilli yaşayış binasının yenidən qurulması burada yaşayan sakinlərin rahatlığını tam təmin edəcək.

Naxçıvan şəhərində tikintisi davam etdirilən obyektlərdən biri də Cəlil Məmmədquluzadə küçəsində inşa edilən yeni Ticarət Mərkəzi və Otel Kompleksidir. Binanın birinci mərtəbəsində dörd hədiyyələr mağazası, iki kinozal, dörd fərqli mətbəxlərə məxsus restoran, ikinci mərtəbədə isə 4-ü ikiotaqlı, 39-u isə birotaqlı olmaqla, 43 otaqlı otel, anbar, camaşırxana, yuyulan əşyaların saxlanma otaqları yerləşəcək. Buradakı saat qülləsi isə altımərtəbəlidir. Qüllənin birinci mərtəbəsi giriş, ikinci mərtəbəsi mətbəx, digər mərtəbələrin hər biri isə kafe üçün nəzərdə tutulub. Eyni zamanda qüllənin hər iki üzünə saat yerləşdiriləcək. Hazırda obyektin ikinci mərtəbəsində otel otaqlarını bir-birindən ayıran divarların tikintisi aparılır, binanın dam örtüyü vurulur, altımərtəbəli saat qülləsi binasının sonuncu mərtəbəsində beton-qəlib işləri görülür.

✍ **Səbuhi HƏSƏNOV**

***Hər birimizin istehlak zənbilində heyvandarlıq məhsulları mühüm yer tutur. İnsan orqanizminə lazım olan zülal, yağ, vitamin və digər faydalı elementlərin əksəriyyəti belə məhsulların istehlakı ilə ödənilir. Ancaq ət, yağ, süd və sair kimi qida məhsullarının tərkibi sağlam olmalıdır ki, orqanizm də ondan faydalanaraq sağlam inkişaf edə bilsin. Əks təqdirdə, bu və ya digər xəstəliklərlə yoldaş olmağımız qaçılmazdır. Aparılan tədqiqatlar nəticəsində məlum olub ki, heyvanlarda olan yoluxucu xəstəliklərin 60 faizinin insanlara keçmə ehtimalı var. Dünyada mövcud olan bioloji terrorizmin 70 faizini isə heyvan mənşəli mikroblar təşkil edir. Məhz belə olan tərzdə baytarlıq heyvandarlıq məhsullarının sağlam tərkibinə zəmanət verilməsində çox mühüm rol oynayır. Əbəs yerə deyilmir ki, səhiyyə insanları, baytarlıq isə bəşəriyyəti müalicə edir. Bəlkə də buna görədir ki, bu sahədə aparılan işlər tibdən daha çətindir. Çünki həkimin vəzifəsi onunla ünsiyyət qurmağı bacaran insanı sağaltmaqdırsa, baytar həkimin vəzifəsi hər hansı "səssiz" orqanizmi bilik və təcrübəyə əsaslanmaqla, həm də yüksək hiss və duyarlılıq keyfiyyətlərinə malik olmaqla müalicə etməkdir.***

# Baytarlıq iqtisadi inkişafın prioritet istiqamətlərindəndir

"Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununa və bu sahədə dünyada qəbul olunmuş prinsiplərə nəzər salsaq, görərik ki, baytarlıq xidmətinin əsas vəzifələri arasında ölkə ərazisinə xarici ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərinin qarşısını almaq, heyvanların yoluxan və yoluxmayan xəstəliklərinin profilaktikası, diaqnostikası və müalicəsi ilə məşğul olmaq, əhalini heyvan və insanlar üçün ümumi olan xəstəliklərdən qorumaq, baytarlıq-sanitariya təhlükəsizliyini təmin etmək, qanunvericiliklə müəyyən edilmiş qaydada heyvan kəsim məntəqələri, emal müəssisələrində, tədarük, saxlanma, satış və digər yerlərdə baytarlıq-sanitariya ekspertizasını həyata keçirmək tədbirləri vardır. Baytarlıq xidmətinin qarşısında həmçinin heyvan xəstəlikləri ilə mübarizə üsulları və vasitələri işləyib hazırlamaq, baytarlıq preparatları və vasitələrinin, yem və yem əlavələrinin, biostimulyatorların, hormonların təhlükəsizliyinə və keyfiyyətinə qanunla müəyyən edilmiş qaydada nəzarət etmək, baytarlıq və heyvandarlıq sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər tərəfindən ətraf mühitin çirklənməsinin qarşısını almaq, çirklənməni aradan qaldırmaq, baytarlıq elminin inkişafı üçün tədbirlər görmək kimi vəzifələr də qoyulub. Təkcə sadalanan bu faktlardan da görürük ki, baytarlıq çox mürəkkəb bir elm sahəsidir. Digər tərəfdən bunu nəzərə alaq ki, bütün ölkələr üçün strateji sahə hesab edilən ərzaq təhlükəsizliyi məsələlərinin həlli yüksəkkeyfiyyətli baytarlıq xidmətinin təşkil olunmasından birbaşa asılıdır. Bəs hazırda muxtar respublikada bu vacib sahənin vəziyyəti necədir?

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində olduq və bizi maraqlandıran suallara cavab axtardıq. Xidmətin ərazisinə daxil olarkən muxtar respublikamızın müasir quruculuq ab-havasının buradan da yan keçmədiyinin şahidi olduq. Geniş və abad həyətdə baytarlıq xidmətinin müasir səviyyədə qurulmasına şərait yarada biləcək bina və maşınların, səliqə-sahmanın olduğu nəzərimizdən qaçmadı. Bu qənaətimizi Dövlət Baytarlıq Xidmətinin əməkdaşları ilə söhbətimizdə də bir daha gördük. Öyrəndik ki, bir zamanlar unudulmuş sahələrdən biri olan baytarlıq muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində mühüm inkişaf yoluna qədəm qoyub. Bu sahədə infrastrukturun yaradılması, maddi-texniki bazanın gücləndirilməsi qısa müddətdə muxtar respublikanın hər bir bölgəsində mühüm baytarlıq tədbirlərinin həyata keçirilməsinə şərait yaradıb. Muxtar respublikada hazırda 1 Elmi-Tədqiqat Baytarlıq Mərkəzi, 8 Baytarlıq İdarəsi, 8 baytarlıq laboratoriyası və 168 baytarlıq məntəqəsi fəaliyyət göstərir. Baytarlıq xidmətinin daha da yaxşılaşdırılması məqsədilə görülən işlərin sayəsində Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin, Elmi-Tədqiqat Baytarlıq Mərkəzinin binaları və Xüsusi təhlükəli xəstəliklərin diaqnostik müayinəsi laboratoriyası yenidən qurulub, laboratoriyada müayinələrin aparılması üçün yeni şöbə yaradılıb və müasir avadanlıqlarla təmin edilib. Məqsədyönlü şəkildə görülən işlərin nəticəsidir ki, muxtar respublikamızda yaradılan kənd mərkəzlərində baytarlıq məntəqələri də istifadəyə verilib. Ona görə ki, kənd təsərrüfatının inkişaf etdirilməsində baytarlıq da mühüm istiqamət təşkil edir. Bu isə onun göstəricisidir ki, indi kəndli baytarlıq xidməti üçün rayon mərkəzinə və yaxud muxtar respublika paytaxtına gəlmir, elə öz təsərrüfatında bu xidmətdən istifadə edə bilir. Nəzərə alsaq ki, muxtar respublikada əhalinin 70 faizi kəndlərdə yaşayır və onların əksəriyyəti kənd təsərrüfatının müxtəlif sahələri, o cümlədən heyvandarlıqla məşğul olur, o zaman baytarlıq xidmətindən istifadə edən təsərrüfat sahiblərinin qarşılarında necə böyük imkanların açıldığını əminliklə söyləmək olar.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov bizimlə söhbətində bildirdi ki, baytarlıq sahəsinə göstərilən dövlət qayğısı sayəsində hazırda bu sahə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Regionda baytarlıq xidmətinin daha da yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir, baytarlıq tədbirlərinin vaxtında və mütəşəkkil aparılması üçün dövlət vəsaiti hesabına dərman preparatları alınaraq muxtar respublikaya gətirilir. Dərman preparatları soyuducu kameralarda müəyyən olunmuş temperaturda saxlanılır, "soyuq zəncir" prinsipinə əməl edilməklə xüsusi maşınlar vasitəsilə rayon baytarlıq idarələrinə çatdırılır. Öyrəndik ki, son illər 7 ədəd dezinfeksiya avtomaşını və 3 ədəd "NİVA" markalı minik avtomobili baytarlıq xidməti əməkdaşlarının istifadəsinə verilib. Məqsəd muxtar respublika üzrə epizootik sabitliyi saxlamaqdan, peyvəndləmələrin, baytarlıq diaqnostika müayinələrinin, digər tədbirlərin vaxtında və səmərəli həyata keçirilməsindən ibarətdir. Söhbət əsnasında öyrəndik ki, cari ilin ilk 9 ayında diaqnostik olaraq brusellyoz xəstəliyini müayinə məqsədilə 48929 baş iribuynuzlu, 89717 baş xırdabuynuzlu, 25092 baş törədici heyvanlardan qan nümunələri götürülərək baytarlıq laboratoriyalarında seroloji müayinədən keçirilib. Eyni zamanda manqo xəstəliyinə görə 440 baş təkdırnaqlı, epididimit xəstəliyinə görə 25092 baş törədici heyvanda, vərəm xəstəliyinə görə 26757 baş iribuynuzlu heyvanda diaqnostik müayinələr aparılıb.

Profilaktik məqsədlə kənd təsərrüfatı heyvanları arasında qarayara xəstəliyinə qarşı 114969 baş iribuynuzlu, 806231 baş xırdabuynuzlu, 4099 baş təkdırnaqlı, dabaq xəstəliyinə qarşı 101020 baş iribuynuzlu, 447941 baş xırdabuynuzlu, leptospiroz xəstəliyinə qarşı 10363 baş iribuynuzlu, emkar xəstəliyinə qarşı 40249 baş iribuynuzlu, bradzot xəstəliyinə qarşı 73035 baş xırdabuynuzlu heyvanlarda, nodulyar "H" (taun) xəstəliyinə qarşı 961101 baş quşda, lasota ilə 498781 baş cücədə, çiçək xəstəliyinə qarşı 258203 baş xırdabuynuzlu, brusellyoz xəstəliyinə qarşı 224300 baş xırdabuynuzlu, pasterellyoz xəstəliyinə qarşı 45852 baş iribuynuzlu heyvanlarda, 48989 baş quşda, aueski xəstəliyinə qarşı 41667 baş iribuynuzlu, trixofitiya xəstəliyinə qarşı 1441 baş iribuynuzlu, nodulyar dermatit xəstəliyinə qarşı 44661 baş iribuynuzlu heyvanlarda peyvəndləmə tədbirləri aparılıb və hazırda bu istiqamətdə işlər davam etdirilir.

Xidmət rəisi ilə söhbətimizdə kadr məsələlərinə də toxunduq. Müsahibimiz bildirdi ki, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində Baytarlıq ixtisası üzrə təhsil alan tələbələrin təcrübə keçmələri üçün xidmətin tədris mərkəzi kompüter dəstləri və hər cür avadanlıqlarla təmin edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kolleci ilə birgə hazırlanmış tədbirlər planına əsasən həmin müəssisələrdə Baytarlıq ixtisası üzrə təhsil alan tələbələrin elmi-nəzəri biliklərinin praktik olaraq möhkəmləndirilməsinə əlverişli şərait yaradılıb. Həmsöhbətimiz onu da vurğuladı ki, hazırda muxtar respublikada 292 baytar həkimi var. Ancaq əsas məqsədimiz bu sahədə gənc kadrların yetişdirilməsidir ki, bunun üçün də hərtərəfli şəraitimiz var.

Yeri gəlmişkən bir məsələni qeyd edək ki, baytarlıq sahəsi üçün ixtisaslı kadrların hazırlanması mühüm məsələdir. Kənd təsərrüfatının inkişaf etdirilməsinin prioritet sahə kimi elan olunduğu muxtar respublikamızda son dövrlərədək gənclərin bu sahəyə maraq göstərməməsi baytarlığın hərtərəfli inkişaf etdirilməsinə bu və ya digər çətinliklər yaradıb. Baytar kadrların böyük əksəriyyətinin orta yaşlardan yuxarı olması da bu mənzərəni sübut edir. Ancaq qeyd etmək lazımdır ki, son illərdə muxtar respublika rəhbəri tərəfindən bu sahədə aparılan islahatlar və atılan addımlar ümumi vəziyyəti müsbətə doğru çox dəyişib. Regionun ən böyük ali təhsil müəssisələrindən olan Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin tərkibində Baytarlıq təbabəti kafedrasının yaradılması, kafedra üçün yeni binanın istifadəyə verilməsi və lazımi vəsaitlərlə təmin olunması bu sahədə tədrisin keyfiyyətinə böyük təsir göstərib. Adıçəkilən kafedranın müdiri Yunis Rüstəmli bizimlə söhbətində bildirdi ki, kafedrada yaradılmış şərait həm tələbələrin bu sahəyə marağını artırır, həm də yüksəkixtisaslı kadrların hazırlanmasına öz töhfəsini verir. Öyrəndik ki, hazırda baytarlıq ixtisası üzrə 42 nəfər təhsil alır. Türkiyə Respublikasının Qars, Ərzurum, Elazığ universitetləri ilə qurulmuş əməkdaşlıq münasibətləri nəticəsində hər il tələbələr həmin universitetlərdə klinik təcrübə və dərslərdə iştirak edirlər. Məhz bu ilin oktyabrında naxçıvanlı tələbələr Qars Qafqaz Universitetinin Baytarlıq fakültəsində heyvan anatomiyası, cərrahiyyə və süni mayalanma fənləri üzrə mühazirə və laboratoriya dərslərində iştirak ediblər.

Muxtar respublikada baytarlıq ixtisası üzrə kadrların hazırlanmasına öz töhfəsini verən müəssisələrdən biri də Naxçıvan Dövlət Texniki Kollecidir. Cari ildə kollec üçün yeni binanın istifadəyə verilməsi, hərtərəfli şəraitin yaradılması burada tədris olunan dərslərin keyfiyyətinə böyük təsir göstərib. Kollecdə olduğumuz zaman baytarlıq ixtisasında təhsil alan tələbələrlə də görüşdük. Öyrəndik ki, hazırda bu ixtisas üzrə 70 tələbə təhsil alır ki, bu tələbələrdən 42-ni qızlar təşkil edir. Tələbələrlə söhbət zamanı öyrəndik ki, onların, demək olar ki, böyük əksəriyyəti öz arzuları ilə bu ixtisası seçiblər. Müasir dövrdə dünyanın əksər ölkələrində, eləcə də muxtar respublikamızda ehtiyac duyulan bu sahəyə qızların böyük maraq göstərməsi bizi də sevindirdi. Çünki təcrübədən də məlumdur ki, qadınlar bu sahədə kişilərə nisbətən daha çox həssaslıq nümayiş etdirirlər. Digər tərəfdən, heyvanlara münasibətdə qadın psixologiyasının daha çox nəvazişlik duyğusu üzərində qurulduğunun çox şahidi olmuşuq. Bu mənada, baytarlıq xidmətinin inkişaf etdiyi bir çox ölkələrdə bu sahələrdə çalışan qadınların sayının çox olması normaldır. Yetər ki, bu sahəyə daxildən gələn sevgi ilə yanaşasan. Etiraf edək ki, adıçəkilən kollecdə tələbələrlə görüşdən sonra yaxın gələcəkdə muxtar respublikada bu sahədə perspektivli nəticələrin yüksək olacağına inamımız daha da artdı.

*Bu faktı unutmayaq ki, bir ölkənin və ya regionun iqtisadi inkişafı baytarlıq xidmətinin təşkilindən, bu sahədəki kadrların hazırlığından çox asılıdır. Nəzər salsaq görərik ki, bu gün kənd təsərrüfatının inkişaf etdiyi Qərb ölkələrində baytarlıq ən mühüm sahə kimi tanınır. Ona görə ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında, yüzlərlə çeşiddə heyvandarlıq məhsullarının ixrac və idxalında, müxtəlif xəstəliklərin qarşısının alınmasında baytarlıq xidmətinin rolu əvəzolunmazdır. İnanırıq ki, həyata keçirilən tədbirlər regionumuzda bu sahənin də nümunəvi inkişafına imkan verəcək. Çünki muxtar respublikamızın müasir iqtisadi inkişafı bunu tələb edir.*

✍ **Səbuhi HƏSƏNOV**

# *"Məişət Xidməti"* Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətində keyfiyyət amilinə üstünlük verir



***Son illər muxtar respublikamızda özəl bölmənin fəaliyyətinə hərtərəfli şərait yaradılıb. Bu, regionumuzun artan gücünü göstərməklə həm də insanların həyat səviyyəsinin yüksəlməsinə, yaşayış tərzinin yaxşılaşmasına imkan verib. Önəmli cəhətlərdən biri də odur ki, bu gün özəl müəssisələrin fəaliyyəti alıcı, müştəri marağına uyğun tənzimlənib və keyfiyyət amili ön planda qərarlaşır. Naxçıvan şəhərində fəaliyyət göstərən "Məişət Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyəti də çalışır ki, müştərilərini razı salsın.***

Bu günlərdə cəmiyyətə gedib onların işi ilə maraqlanmaq istədim. Cəmiyyətin rəhbəri Ramin Abbasovla həmsöhbət olub öyrəndim ki, 2010-cu ildə istifadəyə verilən müəssisədə xalçaların yuyulması, parça və dəri əşyaların boyanması, pərdə və yataq dəstlərinin boyanıb ütülənməsi, yundan yorğan, döşək istehsalı, kimyəvi və quru təmizləmə, evlərin təmizlənməsi kimi sifarişlər yerinə yetirilir. Ramin Abbasov dedi ki, müəssisənin xidmətləri əvvəlcə tələbata tam cavab vermirdi. Amma cari ilin yanvar ayından yeni avadanlıqlar, keyfiyyətli yuyucu dərmanlar alınıb gətirildiyindən, həmçinin mütəxəssislər kursa göndərilib təcrübə topladıqlarından müştəriləri razı sala bilirik.

Qeyd etdiyimiz kimi, burada kimyəvi və quru təmizləmə də aparılır ki, bu prosesdə artıq bir avadanlıqdan deyil, üç yeni avadanlıqdan istifadə olunur. Bu sahənin mütəxəssisi Səkinə Eyvazovadır. O, təmizlənmiş kostyumu göstərərək: – Baxın, – deyir, yenicə alınmış kimidir. Çünki həm müasir avadanlıqda yuyulub təmizlənib, həm də yüksəkkeyfiyyətli dərmanlardan istifadə olunub. Deyir ki, təciliyuma sifarişləri 15-20 dəqiqəyə yerinə yetirilir.

Məlumat üçün bildirək ki, müəssisənin fəaliyyətindən avtomobil sahibləri də istifadə edə bilərlər. Belə ki, burada avtomobillərin içərisinin kimyəvi yuyulub təmizlənməsi də həyata keçirilir. Bundan başqa, köhnə divan-kresloların təmiri, üzlənməsi, yorğan-döşəklərin salınması, divan-kreslo və pərdələrin təmizlənməsi işləri də aparılır. Evlərin və yaxud yeni təmir olunan, tikilən obyektlərin təmizlənməsi sifarişləri də yerinə yetirilir.

Qiymətlərlə də maraqlandıq. Öyrəndik ki, xalçaların 1 kvadratmetri 2 manata, kostyum dəsti 12 manata, pencəklər 8 manata, pərdələrin 1 metri 1,5-2 manata yuyulur.

✍ **Hafizə ƏLİYEVA**

# Torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbir

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu Sədərək rayonunda "Sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi və avtomatlaşdırılmış pensiya təyinatı xidməti" mövzusunda maarifləndirici tədbir keçirib.*

Tədbiri Sədərək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Samil Kazımov açıb.

Fondun Sədərək Rayon Şöbəsinin müdiri Nəsimi Rzayev sosial sığortahaqqı ödənişlərinin gələcək pensiya təminatındakı mühüm əhəmiyyətindən danışıb. Bildirilib ki, elektron xidmətlər içərisində avtomatlaşdırılmış pensiya təyinatı və pensiya kalkulyatoru mühüm yer tutur. Bu sistem sayəsində pensiya yaşına çatmış vətəndaşa fondun Pensiya şöbəsində yaradılan pensiya təyinatı xidmətinə zəng etməklə və şəxsiyyət vəsiqəsinin seriya nömrəsini bildirməklə real vaxt çərçivəsində yaşa görə əmək pensiyası təyin olunur.

Vurğulanıb ki, sosial sığortaya cəlb olunan şəxslər məcburi dövlət sosial sığorta haqlarının vaxtlıvaxtında ödənilməsini təmin edərlərsə, onlar özlərini baş verə biləcək sosial sığorta hadisələrindən sığortalamış olacaqlar. Eyni zamanda ödənilən sosial sığorta haqları torpaq mülkiyyətçilərinə sığorta stajı qazandırmış olur. Məcburi dövlət sosial sığorta haqları fərdi şəxsi hesablara toplanaraq pensiya kapitalını təşkil edir ki, bu da həmin vətəndaşların pensiyasının məbləğinin müəyyənləşdirilməsində əsas rol oynayır.

Tədbirin sonunda iştirakçıları elektron xidmətlərin tətbiqi və istifadə qaydası ilə əlaqədar maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# AMEA Naxçıvan Bölməsinin illik hesabat yığıncağı keçirilmişdir

***Dekabrın 14-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2016-cı ildəki fəaliyyətinə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir.***

Əvvəlcə AMEA Naxçıvan Bölməsinin il ərzində nəşr etdirdiyi monoqrafiyalardan, kitablardan, elmi məqalə, tezis və konfrans materiallarından, dərman otlarından ibarət sərgiyə baxış olmuşdur.

Yığıncaqda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bölmənin 2016-cı ildəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, hesabat dövründə AMEA Naxçıvan Bölməsinin tərkibindəki elmi müəssisələrdə elmi-tədqiqat işlərinin 2016-cı il üçün təsdiq edilmiş planına uyğun olaraq 6 elmi istiqamətdə 6 problemi əhatə edən 7 mövzuya daxil olan 31 işin 81 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Planda nəzərdə tutulan 76 mərhələ üzrə elmi-tədqiqat işləri tamamlanmışdır. Elmi-tədqiqat işləri 29 şöbə və laboratoriyada 2 akademik, 5 müxbir üzv, 4 elmlər doktoru, 47 fəlsəfə doktoru, 5 doktorant, 13 elmi işçi olmaqla 76 elmi və köməkçi heyət tərəfindən yerinə yetirilmişdir. İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsinin ayrı-ayrı institutlarının fəaliyyəti barədə ətraflı məruzə etmişdir. Eyni zamanda əldə olunan nailiyyətlər elektron lövhədə nümayiş olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov çıxış edərək demişdir ki, hər bir cəmiyyətdə elmin inkişafı onun mənsub olduğu dövlətin siyasəti ilə qırılmaz vəhdət təşkil edir. Ümummilli liderimiz Heydər Əliyev siyasi quruluşundan asılı olmayaraq Azərbaycana rəhbərliyinin hər iki dövründə elmin inkişafına çalışmış, daim elmə üstünlük vermişdir. Ulu öndərimizin ölkəmizdə elmin inkişafı sahəsində qəbul etdiyi mühüm qərarlardan biri də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılmasıdır. 14 il bundan əvvəl qəbul edilmiş bu mühüm dövlət sənədində ulu öndərimizin muxtar respublikada elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, mövcud elmi potensialdan istifadənin səmərəliliyinin artırılması barədə rəhbər göstərişləri, Naxçıvanın tarixinin, arxeologiyasının, etnoqrafiyasının və təbii sərvətlərinin öyrənilməsi ilə bağlı tapşırıqları öz əksini tapmışdır.



“Akademiyanın Naxçıvan Bölməsinin fəaliyyətə başladığı dövrdən keçən müddət ərzində ümummilli liderimizin göstəriş və tapşırıqlarının icrası istiqamətində ardıcıl tədbirlər görülmüşdür”, – deyən Əli Həsənov diqqətə çatdırmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı sayəsində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Mərkəzi Aparatı, Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar və Bioresurslar institutları müasir tələblərə cavab verən binalarla təmin edilmişdir. Batabat Astrofizika Rəsədxanası üçün inzibati bina istifadəyə verilmiş, rəsədxananın teleskop sistemi yenidən qurularaq tam avtomatlaşdırılmışdır. Həmçinin ötən müddət ərzində “Nəbatat bağı”nın sahəsi genişləndirilmiş, inzibati bina ilə təmin edilmiş və müasir texnologiyaya malik istixana qurulmuşdur. Bölmənin Seysmoloji xidmət mərkəzində müasir avadanlıqlar quraşdırılmış, Mərkəzi Elmi Kitabxananın bazasında elektron kitabxana yaradılmış və lazımi avadanlıqlarla təchiz edilmişdir. Bölmədə “Tusi” nəşriyyatı fəaliyyətə başlamışdır. Bundan əlavə, bölmədə “Vətən tarixi”, “Arxeologiya”, “Müəssisələrin təşkili və idarə olunması”, “Fiziki kimya” və “Botanika” ixtisasları üzrə iki dissertasiya şurası yaradılmışdır. Bu şuraların muxtar respublikada elmi kadr hazırlığında mühüm rolu vardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2009-cu ildə keçirilən hesabat yığıncağında çıxışı zamanı demişdir: ***“İqtisadiyyat hansı vəziyyətdə olursa-olsun, elm inkişaf etdirilməlidir. Göstərilən diqqət və qayğıdan nəticə çıxarılmalı, elmi-tədqiqatların faydalı iş əmsalı artırılmalıdır”.***

Qeyd olunmuşdur ki, verilən tapşırıqların icrası istiqamətində bir sıra işlər görülmüş, elmi istiqamətlər yeni arxeoloji materiallarla zənginləşdirilmiş, təcrübi tədqiqatlara diqqət artırılmışdır. Ali Məclislə və Ali Məclisin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası ilə həyata keçirilən birgə layihələr uğurlu olmuş, fundamental nəşrlər çap edilərək elmi ictimaiyyətə təqdim olunmuşdur. Lakin bütövlükdə yaradılan şəraitdən lazımınca istifadə edilməmişdir.

Əli Həsənov demişdir: Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının iştirakı ilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, onun institutlarının və digər tabeli qurumlarının 9 aylıq fəaliyyəti ilə bağlı 20-27 sentyabr 2016-cı il tarixlərdə aparılan müzakirələr zamanı məlum olmuşdur ki, bölmədə kadrların seçilməsi və yerləşdirilməsi işinə tələbkar yanaşılmamış, ştatların əksəriyyəti boş qalmışdır. Bunun nəticəsində bəzi şöbələr tam komplektləşdirilməmiş, muxtar respublika üçün vacib olan bir sıra istiqamətlər üzrə – memarlıq, şəhərsalma, abidələrin bərpası, toponimika, filiz yataqları, mineral sular və hidrogeologiya ilə bağlı tədqiqatlar aparılmamış, təkliflər verilməmişdir. İnstitut və digər tabe qurumların fəaliyyətinə nəzarət düzgün təşkil edilməmişdir. Müzakirələr zamanı bir daha aydın olmuşdur ki, elmi şuraların iclasları əksər hallarda formal xarakter daşımış, aktual məsələlər müzakirəyə çıxarılmamış, şöbələrin elmi fəaliyyətlərinə lazımi tələbkarlıq göstərilməmişdir. Bir sözlə, elmin inkişafı üçün imkanlardan və yaradılan şəraitdən səmərəli istifadə edilməmişdir.

Vurğulanmışdır ki, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi müvafiq tədqiqat və elmi nəticələr ilə muxtar respublikadakı inkişafa də öz töhfəsini verə və elmin təcrübəyə tətbiqi sahəsində əməli fəaliyyət göstərə bilməmişdir. Bölmədə iqtisadi təhlillər aparılmamış, muxtar respublikanın iqtisadi uğurlarını əks etdirən elmi nəşrlər hazırlanmamışdır. Elmi işlərin təşkili və aparılması üçün də tələbkar mühit yaradılmamış, muxtar respublikanın elmi və kadr potensialından, eləcə də bu işin əlaqələndirilməsi imkanından lazımi səviyyədə istifadə edilməmişdir. Müzakirələrdən ötən dövr göstərir ki, bəzi elmi işçilər bu müzakirələrin nə üçün aparıldığını hələ də başa düşməyiblər. Hələ də aydın deyil ki, nə üçün toponimikamız, tarixi coğrafiyamız və şəxsiyyətlərimiz öyrənilməli olduğu halda, heç bir xidməti olmayanların şəcərə tarixlərinə bu qədər diqqət və vaxt ayrılır? Bəri başdan deyək ki, bu kimi “təşəbbüslər” elmə xidmət etmir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi işinin daha məhsuldar olması üçün ciddi elmi istiqamətlər və nəşr planları müəyyənləşdirməli, elmi tədqiqatlar şöbə və institutlarda, eləcə də Rəyasət Heyətinin nəzarətində aparılmalı, işə davamlı və sistemli xarakter verilməlidir. Fundamental və tətbiqi elmi tədqiqatların təşkilinə, onların nəticələrinin praktikada tətbiqinə çalışmaq, muxtar respublikanın elmi-texniki potensialını qorumaq və inkişaf etdirmək, gənc kadrlarla iş gücləndirmək lazımdır. Muxtar respublikanın sosial-iqtisadi inkişafı elmi və ətraflı təhlilini tapmalı, təbii və mənəvi dəyərlərimiz, xalq yaradıcılığı, etnomühit dərindən araşdırılmalı, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin muxtar respublikanın aidiyyəti nazirlikləri ilə əlaqəsi daha da gücləndirilməlidir. Bu ildən muxtar respublika rəhbərinin tapşırığı əsasında Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi əməkdaşları akademiyanın elektron informasiya mərkəzindən muxtar respublikanın ümumtəhsil məktəbləri üçün interaktiv nümunəvi dərslərin təşkilinə cəlb olunacaqlar. Söhbət alim nümunəsindən gedir. Alim isə elmi dərəcəsi ilə yox, elmə gətirdiyi yenilik, elmə verdiyi fayda ilə tanınmalı, interaktiv dərslərdə əldə olunan elmi nailiyyətlər, elmi fəaliyyət bir nümunə gücündə göstərilməlidir. Bu gün elmi-tədqiqat müəssisələrində çalışanlar hər cəhətdən nümunəvi olmağı bacarmalı, öz işgüzarlığı ilə hörmət qazanmalı, əsl ziyalı mövqeyi tutmalı, ictimai fikrə fəal təsir gücünə malik olmalıdırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin qarşısında qoyduğu bu vəzifələr yeni ildə fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirir. 2017-ci il Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi üçün işdə ciddi dönüş ili olmalı, nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlər görülməlidir.

Sonra AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov, Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov, Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev hesabat məruzələri ilə çıxış etmişlər.

AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev qeyd etmişdir ki, kollektiv bildirilən haqlı iradlardan nəticə çıxararaq qarşıdakı ildə fəaliyyəti mövcud nöqsanların aradan qaldırılması istiqamətində quracaq, işdə əsl dönüşə nail olacaqdır.

**“Şərq qapısı”**

# Dövlət proqramının icrası diqqət mərkəzində saxlanılır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” təsdiq edilib. Bu proqram Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların layiqli vətəndaş kimi cəmiyyətə inteqrasiya olunması üçün əlverişli şərait yaradır.***

Proqramın əsas məqsədi muxtar respublikamızda yaşayan bu qəbildən olan uşaqların təhsil hüquqlarının təmin edilməsi, inklüziv təhsilə keçid imkanlarının artırılması, distant təhsilin inkişafı, sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasında müasir üsulların tətbiq edilməsi, onların müasir informasiya texnologiyalarından istifadə imkanlarının artırılması, eləcə də təlim-tərbiyəsilə bağlı müvafiq pedaqoji kadrların hazırlanmasıdır. Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi proqramın icrası ilə bağlı bir sıra işlər görüb. Belə ki, muxtar respublika üzrə 18 yaşadək sağlamlıq imkanları məhdud olan 2005 nəfər uşaqdan 363 nəfərinin məktəbəqədər yaşlı olduğu müəyyənləşdirilib və onlar haqqında məlumat bazası yaradılıb.

Komitə tərəfindən 1185 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılıb, həmin uşaqlardan 2 nəfər Şərur Rayon Texniki-Peşə və Sürücülük Məktəbinə, 1 nəfər Naxçıvan Şəhər Regional Peşə Tədris Mərkəzinə, 7 nəfər Naxçıvan Uşaq Bərpa Mərkəzinə, 4 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə, 3 nəfər Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 1 nəfər Naxçıvan Şəhər Şahmat Mərkəzinə, 22 nəfər musiqi məktəblərinə və məktəbdənkənar müəssisələrin dərnəklərinə, 1 nəfər Şərur Rayon Uşaq-gənclər idman məktəbinə, 58 nəfər muxtar respublikanın tam orta məktəblərinə, 5 nəfər uşaq bağçalarına yönləndirilib.

Rübdə bir dəfə olmaqla cari il ərzində 3 dəfə rayon (şəhər) icra hakimiyyətləri və Naxçıvan Müəllimlər İnstitutu ilə birgə muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə 158 nəfər müəllim, metodist və tərbiyəçinin iştirakı ilə kurslar təşkil edilib. Kurslarda məktəbəqədər təhsil müəssisələrinin müvafiq işçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müvafiq mövzular oxunub və tədbir iştirakçılarına müxtəlif materiallar paylanılıb.

Komitə tərəfindən cari ildə sağlamlıq imkanları məhdud uşaqlarla bağlı monitorinqlərin aparılması diqqət mərkəzində saxlanılıb, 211 məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində monitorinq keçirilib, xüsusi kateqoriyadan olan uşaqlara qarşı heç bir hüquq pozuntusu qeydə alınmadığı müəyyən edilib. Eyni zamanda Culfa rayon Yaycı kənd 1 nömrəli və Babək rayon Nehrəm kənd 2 nömrəli, Şahbuz rayon Külüs kənd tam orta məktəblərində sağlamlıq imkanları məhdud uşaqlar üçün tolerant mühitin yaradılması ilə bağlı bu qəbildən olan uşaqların valideynləri, şagirdlər və müəllimlər ilə görüş keçirilib.

Komitə tərəfindən 11 ay ərzində aid təşkilatlarla birgə ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı ibtidai sinif müəllimləri, məktəb psixoloqları və distant tədris üzrə pedaqoji kadrlar üçün 8 dəfə seminar təşkil edilib.

Uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə muxtar respublikanın rayon və şəhərlərində təşkil olunmuş teatr tamaşalarına, animasiya və cizgi filmlərinə, konsert proqramlarına komitə tərəfindən 310 nəfər, sağlamlıq imkanları məhdud 237 uşaq Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Xatirə Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə ekskursiyaya aparılıb. Onlar üçün Naxçıvan Dövlət Film Fondunda “Qaraca qız”, “Bir qalanın sirri”, “Sehrli xalat” filmləri, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında “Duz kisəciyi”, “Ağca və Bozca” tamaşaları göstərilib.

Sağlamlıq imkanları məhdud uşaqların qabiliyyətlərinin inkişaf etdirilməsi, istedadlarının üzə çıxarılması məqsədilə “Müstəqilliyimiz əbədidir” mövzusunda 44 uşaq arasında şeir müsabiqəsi keçirilib, qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar. Əlamətdar və bayram günlərində sağlamlıq imkanları məhdud uşaqların rəsm və əl işlərinin sərgisi təşkil olunub, “İstedadlı uşaqlar” festivalında üç nəfər sağlamlıq imkanları məhdud uşaq “İlin ən yaxşı istedadlı uşağı” adına layiq görülüb.

Ümumiyyətlə, komitə tərəfindən 11 ay ərzində əlaqə saxlanılan 1185 sağlamlıq imkanları məhdud uşaqdan 58-i muxtar respublikanın tam orta məktəblərinə, 8-i məktəbəqədər, 22-si məktəbdənkənar müəssisələrin dərnəklərinə, 2-si idman məktəblərinə, 3-ü peşə məktəbinə, 11-i müalicə və reabilitasiya müəssisələrinə olmaqla, cəmi 104-ü məktəbəqədər, məktəb, məktəbdənkənar təlim-tərbiyə, müalicə və reabilitasiya müəssisələrinə cəlb olunub. Komitə tərəfindən bu kateqoriyadan olan uşaqlar üçün qanvermə aksiyası təşkil edilib, 7 litrə yaxın qan toplanaraq hemofiliya və talassemiya xəstəliklərindən əziyyət çəkən uşaqlara köçürülməsi məqsədilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin qan bankına verilib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adıçəkilən proqramın icrası ilə bağlı tədbirləri hal-hazırda da davam etdirir. Bütün bu görülən tədbirlər bir məqsədə – gələcəyimizin sağlam təməllər üzərində qurulmasına, gələcəyimiz olan uşaqların Vətənimiz, dövlətimiz üçün layiqli, savadlı vətəndaş kimi yetişməsinə xidmət edir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Pürrəngi, yoxsa gülrəngi çay...




***Şahbuz bənzərsiz təbiətə və təbii sərvətlərə sahibdir. Onlar arasında dərman bitkilərinə, dəmlənərək çay kimi içilən çiçək və güllərə xüsusi maraq vardır. Elmi mənbələrdə göstərildiyi kimi, Şahbuz dağları dərman bitkilərinin, güllərin, çiçəklərin növ tərkibinə görə çox zəngindir.***

Süfrələrimizi bəzəyən nemətlərdən ən çox seviləni çaydır, – desəm, yanılmaram. O çay ki onu yayın istisində də, qışın soyuğunda da dərdimizə dərman bilirik. Ürəyimizi sərinlətmək, yorğunluğumuzu çıxarmaq, hövsələmizi açmaq üçün arzuladığımız ilk nemət də çay olur. Çaya bu qədər vurğunluğumuzdan irəli gəlir ki, qapımızı döyən qonaqlarımıza da elə yeməkdən əvvəl çay təklif edirik. Evimizdə qonaq otağı ayrı olduğu kimi, qonaq üçün çay dəsti də xüsusi və gözoxşayan olur. Bəzəkli stəkana güldən, çiçəkdən dəmlənmiş çay süzüləndə ətri, rəngilə gözümüzü, könlümüzü oxşayır. İçəndə isə dərdlərimizə dərman olur.

Dünyagörmüşlər deyirlər ki, sirrinə-sehrinə bələd olduğumuz bitkilərdən dəmlənən çayı süfrələrimizdən əskik etməsək, uzunömürlü, sağ canlı olarıq. Dərman bitkiləri ilə məşhur olan Şahbuz bəlkə buna görə uzunömürlülər diyarı da adlandırılır. Muxtar respublikanın ərazisində olan 250-dən artıq bitkinin 160 növü bu rayonda bitir. Onların sirrinə-sehrinə vaqif olmamaq mümkün deyil. Hələ sovet dönəmində də Şahbuzun dərman bitkilərinin sorağı bütün ittifaqa, dünyaya yayılmışdı.

İllərlə şəfalı bitkilərdən çay, məlhəm, mürəbbə, şərbət hazırlayan Şövkət nənə ilə söhbətimiz də güllər barədə oldu. Yəqin ki, bu qədər gülün-çiçəyin, otun-alafın sirrinə-sehrinə bələd olmağın özü də bir sirdir-sehrdir. Ömrünü-gününü türkəçarədə istifadə olunan məlhəmlər hazırlamağa həsr edən Şövkət nənəyə dedim: – Necə bilmisiniz ki, hansı çiçəkdən çay dəmlənər, başqa birindən mürəbbə bişirilər, şirəsi çəkilər, şərbət, gülab hazırlanar?

Ağbirçək gülümsəyərək: – Bunda nə var ki? – dedi və əlavə etdi: – Atamız, anamız, nənəmiz, babamız dərdinə dərmanı elə öz evinin qənşərində, həyətində, dağında, dərəsində axtarıb tapıb. Dava-dərman adı bilməyən insanlar bir-birinin dərdinə çarə etmək üçün çəmənin çiçəyinə, gülünə, torpağın yetirdiyi, bitirdiyi nə varsa, ümidlərini onlara bağlayıblar. Nəsil-nəsil bu istək, bu inanc, bu sevgi təbiətin sirrini öyrənməkdə bir açar olub. Rəngarəng güllərdən, çiçəklərdən, müxtəlif otlardan, bitkilərdən vədəsində yığmaq, qışda istifadə etmək həvəsi bu yurd yerində hamıda olub. Təbiətin nazənin gözəli olan bitkilər mart ayından torpaqdan baş qaldıraraq ta qar yerə düşənə kimi yurdumuzu, yuvamızı bəzəyir. Qız-gəlinlər onların adını tutub dağda, dərədə, çəməndə, düzdə ətək salıb çobanyastığını, kəklikotunu, qara yarpızı, nanəni, solmazçiçəyini təzə-tər dəstə-dəstə bağlayıb gün tutmayan yerlərdə qurudub qış üçün hazırlayarlar. Elə ki qış gəldi, yazda, yayda, payızda çəmənlərdən, dağlardan, yamaclardan minbir həvəslə yığıb qışa tədarük etdiklərimizlə dəmlənən çay çiçəklərdən, meyvələrdən bişirilən mürəbbələrlə ləzzətlə içilər.

Doğrudan da, Şövkət nənənin dediyi kimi, Şahbuzun əlçatmayan, ünyetməyən qayalarından insan sevgisi ilə süfrələrimizə “qonaq gələn” nemətlər içərisində doqquzdon, həmərsin, yemişan mürəbbələrinin bir ayrı dadı olur.

Dünyanı yorub-yortmuş ağbirçəklə söhbətimiz zamanı bir də dedi ki, qızım, torpaq insan üçün ana qoynudur. Yaxındakı bulağın başında bir iydə ağacı var. Oyulmuş koğuşuna torpaq dolub bərkimişdi. Həmin torpaq üstündə bitən bənövşəni görsəydin, onda təbiətin nəyə qadir olduğunu, torpağın nəfəsindən doğulan gözəlliklərin sirrini-sehrini sən də öyrənməyə çalışardın. Sevgi, istək olmadan nəinki gülün, çiçəyin, torpağın, ağacın, bitkinin dilini öyrənərsən, xasiyyətin bilərsən, heç balaca bir uşağın da könlünü ala bilməzsən. Qızılgülün məhəbbət, dəfnə yarpağının şöhrət, palıdın güc, qüdrət, zeytunun sülh rəmzi olduğunu da bilməzsən.

Aqil insanın söhbətindən anladım ki, torpağın “qılığına girmədən” onun sirrini öyrənə bilməzsən. Axı çəməni də, çiçəyi də torpaq yetirir. Ona görə də birinci olaraq torpağın qədir-qiymətini bilməlisən ki, onun sərvətlərinə sahib olasan.

Qışın gəlişini bildirən soyuq günlər indi təbiətə bir ayrı ahəng bəxş etdiyi kimi, evimizə, könlümüzə də yeni bir ab-hava gətirib. “Qol-boyun” olub yurdumuza keşik çəkən dağların zirvəsində yallı gedən dumandan, çəndən təbiətə təzə bir libas biçildiyi kimi, istəyimiz də dəyişir. Təbiətin bu vədəsində çiçəklərdən ocaq üstə dəmlənən çayın ayrı bir ləzzəti olur. İndi dağ kəndlərimizdə yaşayan insanların süfrələrini məxməri çaydan daha çox bəzəyən belə çaylar, yəqin ki, hamı tərəfindən arzulanandır.

Allı-güllü yaylaqları ilə hər yerdə tanınan Şahbuz dağlarının, dərələrinin dərdə dərman bitkilərini, otlarını, çiçəklərini nənələrimiz, babalarımız Tanrı payı adlandırırlar. Qiymətli təbii sərvətlərimizi tanıtmaq, qədrini bilmək üçün hər birimiz təbliğatçı olmalıyıq. Dövlət tərəfindən də bu istiqamətdə görülən işlər sahib olduqlarımızın qədir-qiymətini bir daha artırır.

Bu il Naxçıvan şəhərində göycə, çörək, bal və başqa festivalların keçirilməsi, həmin festivallarda bütün rayonların iştirakının təmin olunması bir daha onu göstərir ki, torpağımızın sinəsində dəfinələr yatır. Olanımızın qədrini bilmək, təbliğ etmək üçün keçirilən festivallara çıxarılan nemətlərin tədarükündə, hazırlanmasında, sərgilənməsində, sözsüz ki, ayrı-ayrı insanların çox böyük əməyi, rolu olur. Onlar yaşadıqları yurd yerinin təbiətinə vurğun və bələd olduqlarına görə harada yaxşı gülün, çiçəyin açdığını, cır armudun, həmərsinin, doqquzdonun, yemişanın yetişdiyini, baltutarların olduğunu çox yaxşı bilirlər. Əgər günlərin bir günü muxtar respublikamızda dərman bitkilərindən hazırlanmış çay festivalı keçirilərsə, yəqin ki, o tədbirdə qantəpər, çobanyastığı, kəklikotu, qaraqınıq, zirə, damotu, solmazçiçəyi, qara yarpız, dazotu, qarapodium, mərmərik, həmərsin, ayıdöşəyi, səhləb, dağ nanəsi, ögey ana, ağ və sarı boymadərən, gicitkən, yemlik, baldırğan, boyaqotu, şirinbiyan və digər dərman bitkiləri, onlardan hazırlanan çaylar hər kəsin diqqətini cəlb edər.

Dünyanın hər üzünü görmüş ağbirçəklərimizin, ağsaqqallarımızın fikrincə, təndir, ocaq üstdə qaynayan su ilə dəmlənən çay insanı minbir dərdin bəlasından qoruyar, həmişə saf və gümrah saxlayar. Sözsüz ki, ocaq çayının tamı da bir ayrı cür olur. Ona görə də qapımızı döyən qonaq-qaraya indi daha çox matah olan gül-çiçək çayı verilməsi qonaqpərvərliyimizin göstəricisidir. Bəlkə də, dünyada yalnız azərbaycanlılara məxsus keyfiyyətdir ki, evində, süfrəsində yaxşı olan nə varsa, böyük həvəslə, istəklə qonağına bəxş edir...

Bu gün Şahbuz şəhərində dərman bitkilərini istehsal edən “Farma Şah” müəssisəsi fəaliyyət göstərir. Müəssisədə hazırda 49 adda 60 çeşiddən çox dərman bitkiləri paketlənərək satışa çıxarılır. Birdəfəlik dəmləmə, kapsul, bəkməz və 40 qramlıq paketlər şəklində qablaşdırılan minbir dərdin dərmanı olan bu məhsullara Naxçıvanda olduğu kimi, respublikamızın başqa regionlarında da ilboyu böyük tələbat var. Gündəlik istehsal gücü 800 qutudan artıq olan “Farma Şah” bu tələbi ödəmək üçün növbəti mövsümə ciddi hazırlaşır. Şahbuz dağlarında yabanı halda bitən qiymətli dərman bitkilərinin emalını və paketlənməsini həyata keçirən bu müəssisədə həm də rayon sakinləri daimi işlə təmin olunub.

Güllərin, çiçəklərin dilini bilən insanlar onları qaydasınca dəmləməyin də vacib olduğunu deyirlər. Bu da bir hikmətdir. Çölün-çəmənin dilini bilənlər deyirlər ki, çobanyastığını nə bir gün tez, nə də bir gün gec yığmaq olmaz. Kölgədə qurudularsa, ondan dəmlənən çay çox dadlı olar. Çay kimi dəmlənən qara yarpız da öz dadı, tamı ilə sevilir. Səhləb, dəvədabanı, ayıpəncəsi, solmazçiçəyi, nanə, baldırğan, qaraqınıq və onlarla belə bitkilərlə yanaşı, yazda ətri aləmə yayılan, yığılıb qurudulan qızılgül ləçəklərinin də çay dəmləmələrində istifadə olunması elimizə məxsus adətdir. Bu qədər bitkinin, gülün-çiçəyin dilini bilən insanların yaşadığı yerdə hər bir işi görmək olar. Bunun üçün insanlara hərtərəfli dövlət dəstəyi göstərilir və lazımi şərait yaradılır. Deməli, qalır təşəbbüs göstərmək.

**Şəhla NƏBİYEVA**
***“Oğuz səsi” qəzetinin redaktoru***

---

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Musiqi Kollecində təhsil alan bir qrup gəncin Naxçıvan şəhərindəki Möminə xatın türbəsinə ekskursiyası təşkil edilib.***

## Gənclər Möminə xatın türbəsini ziyarət ediblər



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi aparatının Turizm şöbəsinin müdiri Əkbər Novruzov gənclərə bu möhtəşəm abidə haqqında məlumat verərək bildirib ki, Şərq memarlığının incilərindən olan bu türbə 1186-cı ildə inşa olunub. Abidənin memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani bu türbəni Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin xanımı Möminə xatının qəbri üzərində ucaldıb. Abidənin baştağında kufi xətti ilə bu sözlər yazılıb: “Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar”.

Qeyd edilib ki, bu möhtəşəm sənət abidəsi yeraltı və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi onbucaqlı olan abidə bir sıra memarlıq xüsusiyyətləri ilə seçilir. 8 əsrdən artıq keçməsinə baxmayaraq, abidə öz zərifliyini itirməyib. Türbənin səthi quruluşu həndəsi ornamentlərin kompozisiyasından ibarət olub, kaşılarla daha da zənginləşdirilib.

Gənclərə məlumat verilib ki, türbənin sadə quruluşu, kompozisiya yetkinliyi, zərif işlənmiş naxışlar abidənin orta əsrlər memarlığının şah əsərlərindən biri olmasına əsas verir. Bu monumental abidə haqqında Naxçıvana səyahət etmiş Şərq və Avropa səyyahlarının, tədqiqatçılarının əsərlərində maraqlı məlumat və qeydlərə rast gəlinir. Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçilik ənənələrini, yüksək mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərən abidə dünya əhəmiyyətli memarlıq incisi kimi dövlətimiz tərəfindən qorunur.

Sonra gənclər Möminə xatın türbəsinin daxili və xarici quruluşu ilə tanış ediliblər.

**Əli RZAYEV**

## “Araz-Naxçıvan” komandasının iki futbolçusu Azərbaycan millisinə cəlb olunub

Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə muxtar respublikada futbolun inkişafı məqsədilə Azərbaycanın 15 və 16 yaşlılardan ibarət milli yığma komandasının baş məşqçisi Vüqar Məmmədov Naxçıvana dəvət edilmişdi. İki gün Naxçıvanda olan baş məşqçi burada seleksiya xarakterli məşqlər aparmışdır.

Artıq millinin baş məşqçisi Azərbaycan yığmasının heyətini açıqlayıb.

Dekabrın 15-dən 21-nə qədər Bakıda 16 yaşadək futbolçulardan ibarət Azərbaycan yığmasının seleksiya xarakterli təlim-məşq toplanışı keçiriləcək. Toplanış iki hissədən ibarət olacaq. 15-17 dekabr və 19-21 dekabr tarixlərini əhatə edəcək toplanışa dəvət olunmuş heyətdə “Araz-Naxçıvan” komandasının da iki futbolçusu var. Bunlar Hüseyn Abbasov və Əmircan Zamanlıdır.

## Qız voleybolçular arasında birinciliyə yekun vurulub

***Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin idman zalında şəhər tam orta məktəblərinin qız komandaları arasında voleybol birinciliyi keçirilib.***



Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Namiq Novruzov və Təhsil Şöbəsinin nümayəndəsi Mahmud Kərimov çıxış edərək yarışın keçirilməsinin məqsədi haqqında komandalara məlumat veriblər, idmançılara uğurlar arzulayıblar.

Yarışda 14 komanda mübarizə aparıb. Beynəlxalq Voleybol Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarışda VIII-XI sinif şagirdləri mübarizə aparıblar. Yarışın nəticəsinə gəlincə, 15 nömrəli tam orta məktəbin komandası birinciliyin qalibi olub. Digər iki pillədə 6 və 3 nömrəli tam orta məktəblərin voleybolçuları qərarlaşıblar.

Qalib komandalar təşkilatçıların diplomları ilə təltif olunublar.

## Peyntbol üzrə yarış başa çatıb



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının birgə təşkil etdiyi peyntbol üzrə birincilik başa çatıb.***

Birincilikdə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan 8 idarənin komandası mübarizə aparıb. Atıcılıq Mərkəzində reallaşan yarış olimpiya sistemi üzrə keçirilib.

Yarışın nəticəsinə əsasən, final görüşündə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsinin komandası ilə Naxçıvan Terminal Kompleks Birliyinin komandası üz-üzə gəlib. Hədəfləri daha sərrast nişan alan birincilər yarışın qalibi olublar. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Mühafizə Xidmətinin komandası isə üçüncülüklə kifayətlənib.

Sonda qalib komandalara təşkilatçıların diplom, medal və kubokları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini İsmayılov Niyaz Məmmədcəfər oğlunun adına olan JN-321^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Əliyev Məmmədcəfər Musa oğlunun adına olan JN-338^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Bayramov Aftandil Fərzalı oğlunun adına olan evin 7060 inventar nömrəli texniki pasportu və 17 iyun 2009-cu il tarixdə verilmiş MH-0012782 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yaşamış Əliyev Zülfüqar Sadıx oğlunun adına olan JN-2055^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi, bina 75, mənzil 16-da yaşayan Cəfərəliyev Qadir Cabbar oğlununun adına olan 6712 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 950